# "Oynamaq istədiyim rollar hələ qabaqdadır"

Teatr ecazkar bir aləm olmaqla yanaşı, həm də sənət məbəddir. Bu məbədin sakini olmaq isə böyük xoşbəxtlikdir. Azərbaycanın Xalq artisti, Akademik Milli Dram Teatrının ("Azdrama") aparıcı səhnə ustası, minlərlə tamaşaçı qəlbində əbədi yer tutmuş aktrisa Bəsti Cəfərova da bütün ömrünü bu ecazkar sənətə həsr etmiş aktrisadır. Onunla müsahibəmizdə teatrımızın durumu haqda suallara cavab tapmağa çalışdıq.

## "Gənc aktyor olacaq tələbələrə öyrədəcəyim şeylər çoxdur..."



## Bəsti Cəfərova: "Bizim zəmanəmizdə gələn gənc aktrisalar, aktyorlar səhnəyə ayrı bir dinamika, ayrı bir yaraşıq gətirdi"

*(Əvvəli ötən saylarımızda)*

***- Bəsti xanım, hansı sənətkarla eyni səhnəni paylaşmaq istərdiniz?***

- (Gülür). Bu sualı mənə verməsəydiniz, daha yaxşı olardı. Mənim kifayət qədər yaxşı partnyorlarım olub. Mən teatra birinci dəfə qədəm qoyanda ilk səhnə tərəfmüqabilim Həsənağa Turabov olub. Həmin vaxt Əməkdar artist idi, amma onun şöhrəti, sənətkarlığı çox yüksək səviyyədə idi. Onunla tərəfmüqabili olmuşam. Bayaq adını çəkdiyim və ya çəkmədiyim sənətkarlar var. Ayrı-ayrılıqda ad çəkmək istəməzdim. Çünki onların çoxu həyatda yoxdurlar. Allah ölənləri rəhmət eləsin, qalanlara cansağlığı versin!

Mənim bütün partnyorlarım yaxşı olub. Ürəyimdə elə bir arzum qalmayıb ki, kiminləsə tamaşada rol oynamadım. Yenə də deyirəm, elə gözəl partnyorlarım olub ki, əgər yaxşı aktrisa hesab olunuramsa elə rejissorlarıma da, tərəfmüqabillərimə də borcluyam. Çünki mənim ətrafımda həmişə çox sanballı, özgüvəni olan, çox böyük yaradıcılıq potensialına malik olan sənətkarlar olub. Yəni mən onlardan həmişə razı olmuşam.

İndi də hərdən köhnə tamaşaları istər "Mədəniyyət" kanalı, istər də digər televiziyalar göstərir, onlara baxanda öz-özümə deyirəm ki, gözəl günlər idi. Mənim kifayət qədər gözəl partnyorlarım olub.

İndi də teatrımızda yaxşı aktyorlarımız var. Bundan sonra da onlarla işbirliyim olacaq. Mən öz partnyorlarımdan həmişə razı olmuşam. Yəni istəməmişəm ki, mən oynadığım tamaşada tərəfmüqabilim zəif aktyor olsun. O nə qədər güclü olsa, çalışaram ki, ona çatım. Yaxşı aktyorla səhnəni paylaşmaq böyük zövqdür. Əlbəttə, gərək aktyor olasan ki, onu hiss edəsən. Adlarını ona görə çəkmirəm ki, çünki onlar çoxdur, onları unuda bilərəm. O da ayıb olar.

***- Ömrünüzü teatra bağladınız, filmlərə az çəkilməyinizə peşiman deyilsiniz?***

- Bax, bu sualı hər dəfə verirlər mənə. Elə hamıya da eyni cavabı verirəm. Əlbəttə, könül istərdi ki, yaradıcı insanın, aktyor, aktrisanın həm kinoda, həm televiziyada, həm teatrda yaradıcı işləri müvəfəqiyyətli olsun, Amma tale hərdən elə gətirir ki, sənin teatrda fəaliyyətin televiziyanı, kinonu üstələyir. Yəqin məndə də bu cür olub. Mənim televiziya işlərim, televiziya tamaşalarım var. Parlaqdırlar, eyni zamanda da tamaşaçıların yaddaşında qalıb. Amma onlar o qədər də çox deyillər. Tamaşaçı məni teatr tamaşalarından tanıyır.

Bilirsiniz, əvvəllər AzTV-də ədəbi dram redaksiyası var idi. Həmin vaxt bir kanalımız var idi. Teatrda qoyulan hər bir tamaşa anons şəkilində - yeni tamaşalar rublikasından tamaşaçılara təqdim olunurdu. Bu, həm reklam xarakteri daşıyırdı, həm də tamaşaçıları teatra cəlb edirdi. Mənim dediyim illərdən həmişə teatrla yaradıcılıq işim sıx olub. İndi iki ildən bir cəmi 1 tamaşa üzərində işləyirəmsə, əvvəllər - gənc yaşlarımda böyük səhnə ilə kiçik səhnəni bir tutanda elə olurdu ki, bir sezonda dörd tamaşayla məşğul olurdum. Necə vaxt edə bilirdimg Ordan ora gedirdim. Yəni mənim fəaliyyətimin çoxu teatrda keçirdi. Demək istəmirəm ki, ona görə kino fəaliyyətim alınmadı. Hərdən belə də olur.

Mənim bir filmim var: "Günaydın mələyi". Təsəvvürünüzə gətirin ki, aktrisa obrazını oynamışam. Təbii ki, peşman deyiləm, mən kifayət qədər teatrda böyük rollar oynamışam. Üzdə olan aktrisa olmuşam. Ona görə də mən nəyinsə xiffətin çəkim ki, bu məndə alınmadı... Əgər orda alınmadısa, teatrımda kifayət qədər tamaşa alındı.

> Bilirsiniz, əvvəllər AzTV-də ədəbi dram redaksiyası var idi. Həmin vaxt bir kanalımız var idi. Teatrda qoyulan hər bir tamaşa anons şəkilində - yeni tamaşalar rublikasından tamaşaçılara təqdim olunurdu. Bu, həm reklam xarakteri daşıyırdı, həm də tamaşaçıları teatra cəlb edirdi. Mənim dediyim illərdən həmişə teatrla yaradıcılıq işim sıx olub. İndi iki ildən bir cəmi 1 tamaşa üzərində işləyirəmsə, əvvəllər - gənc yaşlarımda böyük səhnə ilə kiçik səhnəni bir tutanda elə olurdu ki, bir sezonda dörd tamaşayla məşğul olurdum. Necə vaxt edə bilirdim... Ordan ora gedirdim. Yəni mənim fəaliyyətimin çoxu teatrda keçirdi. Demək istəmirəm ki, ona görə kino fəaliyyətim alınmadı. Hərdən belə də olur.

***- Bəsti xanım, sizə qədər teatrda nə yox idi ki, onu məhz siz özünüzlə gətirdiniz?***

- Bizim teatrda həmişə hər şey olub. Mən gələn illərdə teatrda kimlər yox idi ki?! Hökumə Qurbanova, Məlik Dadaşov, Şeyx Zamanov, Ağasadıq Gəraybəyli, Möhsün Sənanig Bu, bizim yaşlı nəsil idi. Nəcibə Məlikova idi, Ətayə Əliyeva, Sofa Bəsirzadə, Mirvari Novruzovag Birdən kiminsə adın çəkmərəm, ayıb olar. Yəni o vaxt üçün orta nəsil sayılan sənətkarlarımız da var idi. Çox qüvvətli orta nəsil var idi. Məsələn, Həsənağa Turabov və Amaliya Pənahovanın nəslindən olan aktyorlar. Səməndər Rzayev, Yaşar Nuri, Hamlet Xanızadə, kimlər, kimlər... Və biz gənc nəsil özümüzlə gənclik təravəti gətirdik. Təkcə mən yox ha, mənim indiki həmkarlarım da. Gənc aktyor kimi səksəninci illərdə teatra gələndə biz gənclik təravəti gətirdik. Öz gəncliyimizi gətirdik. Amma "teatrda nəsə yox idi, biz onu gətirdik", elə şeyi deyə bilmərəm.

Bizim teatr kifayət qədər istedadlarla dolu idi. Yəni biz boş məkana gəlmədik. Biz qurulu, artıq öz adət-ənənəsi olan bir teatra gəldik. Biz yeni açılan teatra getmədik. Biz neçə illər sələflərin işlədiyi böyük bir teatra gəldik. Biz teatra özümüzü gətirdik, gəncliyimizi, gənc nəfəsimizi gətirdik. Həm də nəsillərin müştərək işi alındı. Gözəl tamaşalar oynadıq. Biz də onların yanında oynamağa çalışdıq. Mən deyərdim ki, bəlkə də təvazökarlıqdan uzaq olar, biz səhnəyə çox yaraşırdıq. Bizim zəmanəmizdə gələn gənc aktrisalar, aktyorlar səhnəyə ayrı bir dinamika, ayrı bir yaraşıq gətirdi. Təbii, istedadlı idik ki, bizi ana teatra qəbul etmişdilər.

***- Yaxında 65 yaşınız tamam olur. Bu vaxta kimi oynadığınız rollardan ibarət hesabat xarakterli yubiley tamaşası hazırlamaq istərdiniz?***

- Yubiley demişkən, sizdən əvvəl də məndən hörmətli bir jurnalist xanım müsahibə götürdü. Orda bir yerdə yubileyimin olacağını qeyd etmədim. Hə, belə baxanda bu il mənim yubiley ilim hesab olunur. Təvəllüdümü də bilirsiniz. Heç vaxt yaşımı gizlətməyi lazım da bilməmişəm, 65 yaşım var.

***- Allah uzun ömür və cansağlığı versin.***

- Təşəkkür edirəm! Bununla bahəm, mənim pedaqoji fəaliyyətimin də düz 20 ili tamam olur. Mən 2004-cü ildə pedaqoji fəaliyyətə başlamışam. Deyərdim ki, pedaqoji fəaliyyətimi yaradıcılığımdan kənar hesab etmirəm. Elə o da mənim yaradıcılığımdır. Belə ki, gənclərlə işləmək çox maraqlıdır. Mən təcrübəsi böyük olan aktrisayam. Gənc aktyor olacaq tələbələrə öyrədəcəyim şeylər çoxdur. Mən də əlimdən gəldiyi qədər öyrədirəm. Eyni zamanda, gənc nəsildən də nəsə öyrənirəm. Bu, çox gözəl, yaradıcı prosedurdur.

Mən rejissor kimi bu teatrda tələbə aktyorlarla bir tamaşa qoymuşdum. Demək, 2014-15 ci illərin sezonunda bizdə - yuxarıda studiya təşkil olunmuşdu. Magistr tələbələr və yaxud incəsənət universitetinin tələbələri gəlib həmin studiyada məşqlər edirdi. Mən həm də universitetdə dərs deyirəm. Bizim teatr üçün də həmin tələblərlə nəsə hazırladıq və çox uğurlu alındı. Yəni sənətim aktrisalıq olsa da, tələbələrimlə bir rejissor işi aparıram. Bax, bu da mənə çox maraqlıdır.

Mən özüm kifayət qədər rejissorlarla işləmişəm. Gör-götür dünyasıdır. Mən də onlardan nəsə öyrənmişəm, oxumuşam.

***- Hal-hazırda hansı tamaşalar üzərində çalışırsınız?***

- Mən axırıncı dəfə "Əsrə bərabər gün"də Nayman ananı oynadım. 17, 18, 19 mayda oynadıq. Çox ağır roldur. Çox gözəl səhnəm var. Ondan sonrakılar da qoy sirr kimi qalsın. Çox keçməz ki, sizi sevindirərəm.

Unversitetdə də işim davam edir, tələbələrimlə tamaşalar hazırlayıram. Ümid edirəm ki, hər şey yaxşı olacaq. Oynamaq istədiyim rollar hələ qabaqdadır. Ona görə, Allahdan özümə cansağlığı, səhnə ömrü istəyirəm ki, istədiyim, amma hələ oynamadığım obrazlar üzərində də işləyim, tamaşaçılara təqdim edim.

***- "Azdrama"da bədii rəhbərin dəyişməsi nə kimi yeniliklərə səbəb olub?***

- Yeniliklər göz qabağındadır. Tamaşalar oynanılır. Bir tamaşadakı aktyorlar, bir teatrın kollektivi çıxış edir, mənə elə gəlir ki, Allahın köməkliyilə hər şey yaxşı olacaq. Bu, bizim ana teatrımızdır. Biz ana teatrımızı qorumalıyıq. Ana teatrımız həmişə öndə olub və çalışmalıyıq ki, öncül teatrlardan biri olaraq da qalsın.

**Söhbətləşdi:**
**Fuad BİLƏSUVARLI**